**<u>Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)</u>**

**Təsdiq edirəm:**
**"Biznes və logistika" kafedrasının**
**müdiri: dos.M. Ə. Əliyev**
**09 sentyabr 2025-ci il**

**"KORPORATİV İDARƏETMƏ" fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

**<u>I. Fənn haqqında məlumat</u>**

| | |
|---|---|
| **Fənnin kodu:** | **00502** |
| **Fənnin növü:** | əsas |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **payız** |
| **Fakültə:** | **Biznes və menecment** |
| **Qrup:** | **550-1, 550-2, 550-3.** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ -30/30)** |
| **Kredit sayı:** | **6 (altı)** |
| **Kafedra:** | **Biznes və logistika** |

**<u>II. Müəllim haqqında məlumat</u>**


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Mirzəyev Zakir (dosent)** |
| **Korp E-mail:** | **Zakir_Mirzayev@unec.edu.az** |
| **E-mail ünvanı:** | **mirzayevzakir54@gmail.com** |
| **İş telefonu:** | **(012) 440 33 67** |


**Tələbələr üçün qəbul vaxtları: çərşənbə günləri, saat 11:00-13:00**

Bu sillabus dünyanın aparıcı ölkələrinin universitetllərində tədris olunan "korporativ idarəetmə", "corporate governance", " corporate management" və «корпоративное

управление» fənlərinin məzmununa uyğun olaraq “Biznes və logistika” kafedrasının dosent Zakir Mirzəyev tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn biznes səviyyəsində işgüzar təşkilatın idarə edilməsi sistemini öyrənir. Postindustrial dövrün qeyri-müəyyənliklərinə, gözlənimәyən dəyişikliklərinə adekvat cavabın verilməsi menecerin təşkilatçılıq və uzaqgörənlik məharətindən asılıdır. Korporativ menecment mülkiyyət və idarəetmə münasibətlərini formalaşdıran və tənzimləyən idarəetmə prinsiplərini və dəyərini (ümumilikdə idarəetmə mədəniyyətini) araşdırır. O, mülkiyyətçilərlə menecerlərin və digər maraqlı tərəflərin arasında yaranan münasiətləri, səhmdarların xüsusən minaritar səhmdarların hüquqlarının qorunması mexanizmləri, modelləri, konsepsiyaları və elementləri müəyyənləşdirir. Korporativ sosial məsulyyət və korporativ mədəniyyətin formalaşması bu kursda ümdə yer tutur. Korporativ idarəetmə korporativ menecmentə nisbətən şirkətin idarə edilməsinin daha yüksək səviyyəsidir.

Bu anlayışın həm geniş, həm də dar mənalarına baxıla bilər. Korporativ idarəetmənin dar mənası əsasən aşağıdakılarla bağlıdır:

birincisi – şirkətlərin səhmdaralarının maraqlarını qorumaq üçün, şirkətlərin idarəetməsində menecerlərin fəaliyyətinin təmin olunması;

ikincisi – səhmdarların qoyduğu sərmayəyə düşən gəlirin zəmanət mexanizminin istifadəsi;

üçüncüsü – korporativ biznes proseslərinin nəticəsində korporativ qurumun maraqlarının müdafiəsi.

Korporativ idarəetmənin geniş mənası səhmdarların və menecerlərin mülkiyyətə münasibətlərini tənzimləyir və müasir ictimai-sosial quruluşda iqtisadi subyektlərin qarşılıqlı münasibətlərini xarakterizə edir.

Müasir iqtisadiyyatda olan korporativ qurumlar – müasir cəmiyyətin transformasiya islahatlarının xasiyyətini müəyyən edən «xüsusi sosial-iqtisadi strukturlardır».

İqtisadiyyatda formalaşan korporativ idarəetmənin və biznesin əhəmiyyəti bir

çox amillərdən asılıdır:

- korporasiyada mülkiyyət hüquqları sisteminin optimal təşkili (və onların həvalə olunması), restrukturizasiyası və mikrosəviyyənin effektliyinin yüksəlişinə səbəb ola bilər;

- korporasiyada tarixən yaranan mülkiyyət bölgüsü korporativ idarəetmənin spesifik milli modellərini və bunlara müvafiq müəyyən qanunvericilik konsepsiyalarını və dövlətin tənzimləmə modellərini müəyyənləşdirir;

- mikrosəviyyədə sərmayələrin cəlb olunmasının vacib şərtlərindən biri, sərmayədarların (səhmdarların, kreditorların) hüquqları müdafiə olunan korporativ idarəetmənin «şəffaf» modelidir;

- korporativ idarəetmənin modeli qiymətli kağızlar bazarının inkişafı ilə sıx bağlıdır, buna görə onların dövlət tərəfindən tənzimlənməsi kompleks şəkildə aparılmalıdır;

- kapital bazarının strukturu və korporativ idarəetmənin modeli – bazar iqtisadiyyatının bu konkret formaları vasitəsi ilə korporasiyaların maliyyələşdirilməsi və təşkilatlarında olan fərqləri, sənaye sahələrinin strukturunu, işəgötürənlər və işçilər arasında olan münasibətləri müəyyən edir;

- mikrosəviyyədə korporativ idarəetmənin modeli iqtisadi yüksəlişin əsas institusional tərkibi sayılır.

İqtisadi münasibətlərin müəyyənliyi (xüsusilə korporativ münasibətlərin), yəni mülkiyyət hüquqları bölgüsü dəyişmədən bazar iqtisadiyyatının fəaliyyəti üçün prinsipial əhəmiyyət daşıyır.

## IV. Fənnin məqsədi və vəzifələri

Korporativ idarəetmə fənninin tədrisinin başlıca məqsədi tələbələrdə mülkiyyətin idarə edilməsi təfəkkürünü formalaşdırmaq və inkişaf etdirməyin nəzəri və metodoloji hissəsini aşılamaqdan ibarətdir. Başqa tərəfdən bu fənnin əsas hədəfləri sırasında korporativ idarəetməninin prinsiplərini, elementlərini, haqqında ətraflı biliklərə yiyələnməsini göstərmək lazımdır. nail olmaq əsas hədəflərdəndir.

Bü fənnin tədrisi başa çatdıqdan sonra tələbə korporativ idarəetməinin nəzəri sahəsi üzrə aktual mövzular ətrafında müzakirələr aparmağı və mülahizələr söyləməyi bacaracaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Korporasiyaların əsas xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Korporativ biznes və idarəetmə haqqında əsas elmi yanaşmaları və modelləri tələbələrə təqdim etmək;
- Korporativ idarəetmənin əsas konsepsiyaları, elementləri və prinsipləri haqqında məsələləri başa salmaq;
- Korporaiv idarəetmənin modelləri və mexanizmlərini və korporativ idarəetmə subyektlərinin hüquqlarının qorunmasını tələbələrə aşılamaq;
- Kororativ sosial məsuliyyətin və mədəniyyətin əsas çalarlarının tələbələrə sərgilənməsi.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Səhmlərin növlərini və onların əsas xüsusiyyətlərini;
- Korporasiyaynın ələ keçirilməsi yolarını ;
- Səhmdarların vı digər maraqlı tərəflərin hüquqlarının qorunmasıni;
- Diertorlar şürasının hüquq və vəzifələrinin;
- Sosial məsuliyyətin əsas şərtlərinini;
- Xırda və iri  səhmdarların münasiələrinin tənzimlənməsini;
- Krporativ idarəetmə modellərinin fərqli və oxşar çəhətlərinini

**Bacarmalıdırlar**:

- müxtəlif korporativ idarəetmə subyektlərinin maraqlarını fərqləndirməyi;
- şirkətlərin qovüşması və udulması menexanizmlərinin rolunu;
- səhmdar cəmiyyətinin hakimiyyət xəttni;
- digər maraqlı tərəflərin maqar və hürurlarını;
- korporativ nəzarət isteminin nədən ibarət olmasını i;
- sosial məsuliyyətin və və korporativ etikanının korporativ mədəniyyətdən asılılığını;
- korpotiv dəyərlərin cəmiyyətə və dövlərin idarəetməsinə sirayət etməsini.

## VII. Prerekvizitlər

Bu fənn “Menecment” ixtisasında “Menecment” fənnindən sonra tədris olunmalıdır.

## VIII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Korporasiya- biznesin təşkilinin əsas forması kimi
2. Korporativ idarəetmənin konsepsiyaları və elementləri
3. Korporativ idarəetmənin prinsipləri və modelləri
4. Korporaiv münasibətlərin subyektləri
5. Korporativ idarəetmə mexanizmləri
6. Səhmdar cəmiyyəti və səhmdar mülkiyyəti
7. Şirkətin idarə edilməsində direktorlar şurasının fəaliyyəti
8. Korporativ nəzarət

**9.** Qeyri-mükəmməl korporativ idarəetmənin nəticələri
**10.** Korporativ münaqişələrin mahiyyəti və həlli yolları
11. Dövlət- korporativ idarəetmənin subyekti kimi
**12.** Korporativ münasibət subyektrlərinin hüquqlarının qorunması və şəffaflıq
**13.** Korporativ mədəniyyət
**14.** Korportiv sosial məsuliyyət
**15.** Cəmiyyətdə korporativ hakimiyyətin möhkəmləndirilməsinin yeni keyfiyyət parametrləri

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (unec.edu.az) yerləşdirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri


1. H .S Həsənov. İri sahibkarlıq strukturları Bakı 2007
2. H .S Həsənov. Korporativ idarəetmənin təməl daşları. Bakı. 2012
3. M. Məmmədov, H. Əliyev Korporativ idarəetmə Bakı 2010
4. Дементьева А.Г. Основы корпоративного управления. М., Маги- стр, 20018, 575с.
5. Дементьев В.Е., Львов Д.С. Финансово-промышленные группы в российской экономике. М. , 2009. 120с.
6. Дынкин А.А., Соколов А.А. Интегрированные бизнес-группы- прорыв к модернизации страны. М., 2001. 178с.
7. Забелин П.В. Основы корпоративного управления концерном. М., 2006. 212с.
8. Корпоративное управление: вопросы теории, проблемы практики:коллективная монография / М.И. Барабанова, И.Ф. Ветрова, Г.С. Гасанов и др.; под ред. М.В. Мельник, Ю.И. Растовой. – СПб. : 2017
9. Корпоративное управление: пер с англ-3-у изд-М., 2015. 222с.
10. Крук М.Д. Современные формы и механизмы корпоративного

управления (методология и практика).М.2014. 108 с.

11. Леванова Л.Н. Теория корпоративного управления-учебник Саратов: 2021 с171
12. Корпоративные конфликты в современной России и за рубежом, Текст подготовили С. Селиванов и С. Гадирханов. Москва 2021.

## **XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| **Həftə** | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| **1** | Korporasiya- biznesin təşkilinin əsas forması kimi | Korporasiya nədir? Hansı növləri vardır? korporasiyanını fəaliyyəti hansı prinsiplərə söykənir? | 1. 3, 2.1 ,7.1 |
| **2** | Korporativ idarəetmənin konsepsiyaları və elementləri | Korporativ idarəetməninin hansı konsepsiaları vardır və onlarır əsas fərqləri hansılardır? Korporativ idarəetməninin 3 elementi | **8** (fəsil 3) **7** (fəsil 4.) 9(fəsil 9); 11.4 |
| **3** | Korporativ idarəetmənin prinsipləri və modelləri | Korporativ idarəetmənin prinsipləri hansılardır və kim tərəfindən hazılanmışdır? Neçe modeli vardır və onların əsas cəhətəri hansılardır? | **5 (**fəsil 2 ); **6** (fəsil 3.); **8** (fəsil 2 ) 7 (fəsil 2.) |
| **4** | Korporaiv münasibətlərin subyektləri | Korporaiv münasibətlərin subyektləri kimlədir, onların maraqlarının mahiyyəti nədir? | **5** (fəsil 4 ); **8**(fəsil 2); 10 (fəsil 4) |
| **5** | Korporativ idarəetmə mexanizmləri | Korporativ idarəetmə mexanizmləri neçə yerə bölünür və onların məzmunu nədən iarətdir? | **6** (fəsil 4 və 5); **9** (fəsil 2,3,4); |
| **6** | Səhmdar cəmiyyəti və səhmdar mülkiyyəti | Səhmdarlar kimlərdir? Səhmdar cəmiyyətinin qurulmasının Azərbaycan xüsusiyyətləri? Səhmdar mülkiyyətinin formalaşmasının əhəmiyyəti? | **9** (fəsil 2); **6** (fəsil 7 ); |
| **7** | Şirkətin idarə edilməsində direktorlar şurasının fəaliyyəti | Şirkətin idarə edilməsində direktorlar şurasının fəaliyyətinin təşkili xüsusiyyətləri? direktorlar şurasının fəaliyyətinin əsas chətləri? Və əsas | **5(**fəsil 6); **3** (fəsil 8) |

| | | | |
|---|---|---|---|
| | | funksiyaları | |
| **8** | Korporativ nəzarət | Korporativ nəzarətin növləri, xüsusiyyətləri və münasibətləri | **10** (fəsil4);<br>11 (3) |
| **9** | Qeyri-mükəmməl korporativ idarəetmənin nəticələri | Qeyri-mükəmməl korporativ idarəetmənin nəticələri hansılardır? Onları necə aradan qaldırmaq olar ? səhmdarlrın hüquqlarının qorunması necə məndi fəsadları aradan götürür? | **2** (fəsil 2 );<br>5 (fəsil 8)<br>12( bütün fəsəillər) |
| **10** | Korporativ münaqişələrin mahiyyəti və həlli yolları | Korporativ münaqişələrin növləri hansılardır və onların mahiyyəti nədən ibarətdir? | 3(fəs4)<br>10 (fəsil 12 );<br>12( bütün fəsəillər) |
| **11** | Dövlət- korporativ idarəetmənin subyekti kimi | Dövlər hansı anlarda korporativ idarəetmənin subyekti olur? Onun xeyri nədən ibarətdir? Hansı mexanizmlərlə dövlər korporativ idarəetmənin subyekti olur? | **5** (fəsil 6);<br>10 (4,5) |
| **12** | Korporativ münasibət subyektrlərinin hüquqlarının qorunması və şəffaflıq | Korporativ münasibət subyektrlərinin hüquqları necə pozulur? Korporativ münasibət subyektrlərinin hüquqlarının qorunması necə baş verir? Şaffaflıq necə baş verir? Hansı növləri vardır? | **3** (fəsil 10) 4.5, |
| **13** | Korporativ mədəniyyət | Korporativ mədəniyyətin əsas çalarları hansılardır? Digər mədəniyyət növləri ilə nələrlə seçilir? Şirkətin digər mücərrəd dəyərləri sistemini necə formalaşdırır? | **1** (fəsil 16);<br>**2** (fəsil 18);<br>**3** (fəsil 13) |
| **14** | Korportiv sosial məsuliyyət | Korportiv sosial məsuliyyət neə yaramışdır? Digər məsuliyyət növlərindən nə ilə seçilir? Şirkətə hansı üstünlüklər verir? Şirkətin rəqabətqabiliyyətliliyini və bazar kapitallaşmasını necə artırır? | **5 (**fəsil 12);<br>**11** (fəsil 11) |
| **15** | Cəmiyyətdə korporativ hakimiyyətin möhkəmləndirilməsinin yeni keyfiyyət parametrləri | Cəmiyyətdə korporativ hakimiyyətin möhkəmləndirilməsinə zərurət nə üçün yaranməşdır? TMK-arın hörmüranlığı necə formalaşır? Dövlət korporativ idarəetmə əsasında qurula bilərmi? | **1** (fəsil 6)<br>**10 (fəs7)** |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Bütün ali məktəblərdə tələbələrin attestasiyası – Azərbaycan Respublikası Təhsil Nazirinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında" Əsasnaməyə uyğun olaraq aparılır.

Tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Aralıq qiymətləndirmə

Tələbənin aralıq imtahanındakı cavabı 0-30 bal aralığında (maksimum 30 bal) qiymətləndirilir.

## XV. Yekun imtahan

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada və test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XVI. Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

## XVII. Fənn üzrə qiymətləndirmə

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal - “qənaətbəxş” – **E**
61-70 bal - “kafi” – **D**
71-80 bal - “yaxşı” – **C**
81-90 bal - “çox yaxşı” – **B**
91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**  **dos. Mirzəyev Zakir**